# Nazim
# Mustafa

***(Mustafayev Nazim Yusif oğlu)***

## *B İ B L İ O Q R A F İ Y A*

**Bakı 2022**

**91.9:63**
**M 85**

**İxtisas redaktoru**

**Mayıl Əhmədov**
*Prezident Kitabxanasının direktoru,*
*Əməkdar mədəniyyət işçisi*

**Tərtibçi**

**Sonaxanım Abasova**
*İnformasiya-biblioqrafiya və*
*kitabxana xidməti şöbəsinin müdiri*

**Redaktor**

**Məhəbbət Əliyeva**
*İnformasiya-biblioqrafiya və*
*kitabxana xidməti şöbəsinin bölmə müdiri*

**Nazim Mustafa** (Mustafayev Nazim Yusif oğlu): biblioqrafiya / İxtisas red. M. Əhmədov; tərt. S. Abasova; red. M. Əliyeva.- Bakı, "Elm və təhsil", 2022.- 310 s.

*Biblioqrafik göstəriciyə tarix üzrə fəlsəfə doktoru, Dövlət Mükafatı Laureatı, Prezident Kitabxanasının şöbə müdiri Nazim Mustafanın həyatı və elmi fəaliyyəti haqqında xronika, 1991-2021-ci illəri əhatə edən kitab və məqalələrinin, müsahibələrinin və ssenarisinin müəllifi olduğu sənədli filmlərin biblioqrafik məlumatları daxil edilmişdir. Göstərici Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının əməkdaşları tərəfindən hazırlanmışdır.*

4602000000
N-98-2022 qrifli nəşr

**© Nazim Mustafa, 2022**



**Prezident İlham Əliyev
Azərbaycan Respublikasının
Dövlət Mükafatı Laureatının
diplomunu və Döş nişanını təqdim edir**

**2012-ci il üçün Azərbaycan Respublikasının elm sahəsində Dövlət Mükafatının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə 2012-ci il üçün Azərbaycan Respublikasının elm sahəsində Dövlət Mükafatı aşağıdakı şəxslərə verilsin:

Yaqub Mikayıl oğlu Mahmudov
Kərim Kərəm oğlu Şükürov
Tofiq Teyyub oğlu Mustafazadə
Süleyman Abbas oğlu Məmmədov
Güntəkin Cəmil qızı Nəcəfli
**Nazim Yusif oğlu Mustafayev**
Göhər Nağı qızı Məmmədova
Hacı Nuru oğlu Həsənov
İsrafil Süleyman oğlu Məmmədov
Vidadi Umud oğlu Umudlu
Səidə Müzəffər qızı Hacıyeva
İradə Malik qızı Məmmədova
Nigar Rövşən qızı Gözəlova

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 may 2012-ci il*

## Göstərici haqqında

Tarix üzrə fəlsəfə doktoru, elm sahəsində Dövlət Mükafatı laureatı, Prezident Kitabxanasının şöbə müdüri Nazim Mustafanın (Mustafayev Nazim Yusif oğlu) əsərlərinin biblioqrafik göstəricisi 1991-2021-ci illəri əhatə edir. Biblioqrafiyaya alimin Azərbaycan və digər dillərdə çap olunmuş monoqrafiyaları, kitabları, elmi konfrans və simpozium materiallarında, dövri mətbuatda dərc edilmiş publisistik məqalələri haqqında məlumatlar daxil edilmişdir.

Biblioqrafiyaya daxil olan materiallar müvafiq bölmələr üzrə xronoloji ardıcıllıqla yerləşdirilmişdir.

Nazim Mustafanın həyati və elmi fəaliyyəti haqqında xronika Azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdir. Onun haqqında görkəmli alimlərin və ziyalıların fikirləri biblioqrafiyada öz əksinin tapmışdır.

Əsərlərinin biblioqrafiyası bölməsində Nazim Mustafanın müəllifi və həmmüəllifi olduğu "Tarixin qara səhifələri: Deportasiya. Soyqırım. Qaçqınlıq", "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi", "Qubadlı: qədim Azərbaycan torpağı Zəngəzurun qapısı", "İrəvan quberniyasında azərbaycanlıların soyqırımı: 1918-1920", "Azərbaycan Xalq Cümhuriyyəti işığında: 1918-1920: araşdırmalar, məqalələr", "İrevan şehri. Türk-İslam Varlığı Nasıl Yok Edildi", "Erməni saxtakarlığı: yalan üzərində qurulan tarix", "İrəvan şəhəri", "Həqiqətin onomastikası: indiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması" adı kitabları, kitablarının digər dillərdə olan versiyaları, tərtib etdiyi, redaktoru, məsləhətçisi, rəyçi olduğu kitablar, dövri mətbuatda və

məcmuələrdə çap edilmiş elmi məqalələri, ictimai-siyasi proseslərə aid dövri mətbuatda dərc edilmiş publisistik məqalələri əks etdirilmişdir.

Alimin elmi və ictimai-siyasi mövzularda məqalələrinin biblioqrafiyası və müsahibələri haqqında məlumatlar kitaba daxil edilmişdir.

Nazim Mustafanın ssenarisinin müəllifi və məsləhətçisi olduğu sənədli filmlər haqqında məlumatlar da biblioqrafik göstəricidə öz əksini tapmışdır.

Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə alimin əsərlərinin əlifba üzrə köməkçi göstərici tərtib edilmişdir.

## Nazim Mustafa haqqında

Ermənilərin iç üzünün açılması sahəsində bir sıra sanballı tədqiqatların müəllifi Nazim Mustafanın 1918-1920-ci illərdə İrəvan quberniyasında ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlardan bəhs edən "İrəvan quberniyasında azərbaycanlıların soyqırımı: 1918-1920" kitabı arxiv sənədləri, dövri mətbuat materialları, vicdanı qarşısında obyektivliyini itirməyən erməni və xarici müəlliflərin əsərlərinə əsaslanaraq yazılmışdır. Bu əsərin üstün cəhəti ondadır ki, müəllif təkcə Azərbaycan arxivlərində saxlanılan arxiv materiallarına deyil, eyni zamanda Türkiyə arxivlərində saxlanılan və ermənilərin Cənubi Qafqazda törətdikləri kütləvi qırğınlar barədə məlumatları özündə əks etdirən materiallara da istinad etmişdir.

1918-1920-ci illərdə Cənubu Qafqazda fəaliyyət göstərən diplomatik missiyaların və beynəlxalq təşkilatların nümayəndəliklərinin bir çox yazışmalarında ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlardan bəhs edilir. Həmin sənədlərin bir qisminin son illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşları tərəfindən surətləri çıxarılaraq Azərbaycana gətirilimişdir. Nazim Mustafa bu kitabı yazarkən həmin sənədləri də elmi-tədqiqat dövriyyəsinə cəlb etmişdir.

Nazim Mustafa bu əsərində Ermənistanda daşnak hökumətinin baş naziri olmuş Ovanes Kaçaznuninin, erməni tarixçilərindən Leonun (əsl adı Arakel Babaxanyan), Anahid Lalayanın, erməni yazıçısı və publisisti Marietta Şahinyanın, ABŞ-da yaşayan erməni tarixçisi Riçhard Hovanesyanın əsərlərinə istinad edərək, 1918-1920-ci illərdə erməni silahlı

qüvvələrinin azərbaycanlı əhaliyə qarşı törətdikləri qırğınların miqyasını göstərməyə nail olmuşdur.

Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin həyata keçirilməsi ilə yanaşı, tarixi adlara qarşı da soyqırımı həyata keçirilmişdir. 2006-cı ildə Tarix İnstitutu mənim rəhbərliyim ilə Azərbaycan və ingilis dillərində "Vandalizm: Tarixi adlara qarşı soyqırımı" kitabını çap etdirmişdir. Ön söz yazdığım həmin kitabın tərtibçisi Nazim Mustafa müəyyən etmişdir ki, Ermənistan hökumətinin və parlamentinin qərarları əsasında 2006-cı ilədək azərbaycanlılara məxsus 668 yaşayış məntəqəsinin və inzibati-ərazi vahidlərinin adları dəyişdiriləlayarək erməni adları ilə əvəz edilmişdir. Eyni zamanda, Nazim Mustafa müəyyən etmişdir ki, 1918-ci ildən etibarən indiki Ermənistan ərazisində ermənilərin törətdikləri qırğınlar və həyata keçirdikləri deportasiyalar nəticəsində 254 azərbaycanlı yaşayış məntəqəsi xarabalığa çevrilərək yaşayış məntəqələrinin siyahısından silinmişdir. Nazim Mustafa bu kitabında təkcə 1918-1920-ci illərdə dağıdılaraq xarabalığa çevrilən 130 yaşayış məntəqəsinin adlarını oxuculara təqdim etmişdir.

Nazim Mustafanın ərsəyə gətirdiyi bu kitab, əslində hansı xalqın soyqırımına məruz qoyulduğunu sənədlərin dili ilə ortaya qoyur.

***Yaqub Mahmudov***

*AMEA-nın həqiqi üzvü,*

*Dövlət Mükafatı laureatı*

*(Nazim Mustafanın "İrəvan quberniyasında azərbaycanlıların soyqırımı: 1918-1920" kitabına yazdığı "Ön söz"dən iqtibas).*

***

Tarihçi Nazım Mustafa`nın ilk kaynaklar temel alınarak yazdığı “İrevan şehri. Türk-İslam Varlığı Nasıl Yok Edildi” kitapı İrevan şehrinin tarihini objektif şekilde ortaya koymaktadır. Yazar hem yabancı, hem de Ermeni yazarlardan alıntı yaparak İrevan`ın Türk-Müslüman şehri olduğunu kanıtlamaktadır.

Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı İlham Aliyev de bu konuya özellikle önem vermektedir. Konuşmalarından birinde Cumhurbaşkanı bu konuda şunları söylemiştir: "Tarihte bir defa Azerbaycan topraklarında Ermeni devleti kurulmuştur. O devlet bugünkü Ermenistan`dır. O topraklar bizim atalarımızın topraklarıdır. İrevan hanlığı, Zengezur bölgesi - bütün bunlar hepsi Azerbaycan toponimleridir. Hatta şimdi Ermeniler kendileri de XX. yüzyılın başlarında İrevan şehrinde nüfusun çoğunluğunun Azerbaycanlılardan oluştuğunu itiraf etmektedirler. Bunu kanıtlayan belgeler ve resimler bulunmaktadır".

Nazım Mustafa`nın bu kitabında İrevan`dakı Azerbaycanlılara ait tarihi eserlerin, camilerin, kalelerin, türbelerin Ermeniler tarafından nasıl yok edildiği de araştırılarak yazılmıştır. Bu anlamda Ermeniler İrevan`ın tarihinin Roma`dan 30 yıl daha eski olduğunu iddia etmiş olsalar da aslında İrevan`dakı Ermeni eserlerinin yaşı 200 yılı geçmemektedir. İrevan`da Ermenilerin tahrip edemedikleri, şu anda faaliyette bulunan ve 200 yıldan fazla tarihe sahip tek eser Gök Camii`dir. Azerbaycan Türklerinin camisi olan bu cami de restorasyon için İran`a verilmiş ve o da dünyaya Fars camisi olarak tanıtılmaktadır.

Nazım Mustafa`nın en öneli özelliklerinden biri onun Ermeniceyi bilmesi ve kitabı yazarken Ermenice kaynakları kullanmasıdır. Nazım Mustafa aynı zamanda İrevan Hanlığı kitabının da yazarlarındadır. İrevan Hanlığı kitabı Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı İlham Aliyev`ın tavsiyesi ve be nim yönetimimde basılmıştır. Bu kitap 2012 yılında Azerbaycan Cumhuriyeti devlet ödülünü almıştır. Okuyuculara sunulan bu kitap ise İrevan şehrinin tarihi ile ilgili önemli bir boşluğu doldurmakta ve Ermeni tarihçilerinin iddialarına karşı en objektif cevap niteliğindedir.

Bu kitabın Türkçeye tercümesi Türk toplumu ve araştırmacılarının İrevan`ın objektif tarihi ile tanışmasına fırsat sunmaktadır. Okuyucular bu kitapla tarihi Türk-Müslüman şehri olan İrevan`ın nasıl Ermenileştirildiği ve sadece Ermenilerin yaşadığı bir şehir olduğunu öğrenecekler.

***Prof. Dr. Yakup Mahmudov,***

*Azerbaycan Milli Bilimler Akademisi*

*(Nazim Mustafanın "İrevan şehri. Türk-İslam Varlığı Nasıl Yok Edildi" kitabına yazdığı "Ön söz"dən iqtibas).*

* * *

**Ömrünü tarixi həqiqətlər axtarışına həsr edən ziyalı**

Hər bir xalqın, millətin Tarixdə yaşaması, onun tarixi yaddaşının qorunub saxlanılması, Zaman deyilən ölçüdə itməməsi üçün elm fədailəri öz həyatlarının bir hissəsini bəşəri dəyərlərin nəsildən-nəslə ötürülməsi işinə həsr edirlər. Tarixi yaddaşın qorunub saxlanılması işində tarixçi-alimlərin müstəsna xidmətləri danımlazdır və Azərbaycanın bir sıra tarixçiləri də tarixi həqiqətlərin üzə cıxarılmasnda öz

töhfələrini vermiş, əmək sərf etmiş, qələmləri ilə dəyərli əsərlər yazmış, təkcə Azərbaycan tarixşünaslığını deyil, eyni zamanda Qafqazşünaslıq elmini də zənginləşdirmişlər. Belə alimlər sırasında indi Ermənistan adlanan dövlətin Amasiya rayonunun (keçmiş Ağbaba-Şörəyel naniyəsinin) Güllübulaq kəndində doğulmuş, tam varlığı ilə Azərbaycanımıza bağlı olan Nazim Mustafadır.

Ali təhsil haqqında diplomu 20 yaşında almış Nazim müəllim Ermənistan SSR-də əmək fəaliyyətinə başlamış, erməni məkrinin mahiyyəti ilə üz-üzə gəlmişdir. Oxucu auditoriyasının nəzər-diqqətinə belə bir reallığı çatdırmaq istərdim ki, Nazim müəllim XX əsrin 80-ci illərinin sonlarında erməni məllətçilərinin XX əsrin əvvəllərində uydurduqları qondarma "Dağlıq Qarabağ" probleminin növbəti fazasında erməni faşizminin törətdiyi cinayətlərin şahidi olmuş, erməni faşistlərin İrəvan məkanında apardıqları etnik təmizləməni yaşamışdır. Azərbaycan tarixinin bu acı səhifələrinin faciəsini yaşamış Nazim müəllim bu zamandan etibarən bir çox Azərbaycan türkləri kimi Bakıda məskunlaşmış və həyatını erməniliyin hələ orta əsrlərdə uydurduğu "Böyük Ermənistan" əfsanəsini ifşa etməyə həsr etmişdir. Erməni məkrini ifşa etməyi, Azərbaycan torpaqlarında erməni millərçilərinin törətdikləri soyqırımları öyrənməyi və bu problemlə bağlı Azərbaycan tarixşünaslığında mövcud boşluqları doldurmağı qarşya məqsəd qoyan Nazim Mustafa, XX əsrin əvvəllərində erməni millətçilərinin İrəvan məkanında və Zəngəzurda azərbaycanlılara qarşı törətdikləri soyqırımı dəlillər və sübutlar əsasında göstərə bilmişdir. Problemi ciddi şəkildə araşdıran Nazim müəllim "1905–1906-cı illərdə İrəvan quberniyasında və Zəngəzur qəzasında ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar" mövzusunda yazdığı dissertasiya işini 2014-cü ildə müdafiə etmişdir. XX əsrin əvvəllərində ermənilik tərəfindən Azərbaycan tarixinə salınmış "erməni

məsələsi"ni öyrənən alim-tədqiqatçı erməni millətçilərinin ötən əsrdə törətdikləri fitnə-fəsadları davamlı olaraq izləmiş və həmmüəllifi olduğu "Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq." (Vaqif Arzumanlı ilə birgə) adlı əsərini 1998-ci ildə ərsəyə gətirmişdir.

Nazim Mustafa Azərbaycanın maddi-mədəni irsini məhv edən erməni vandalizmini də illər boyu araşdırmış və İrəvan məkanında erməni faşistlərinin törətdikləri cinayətləri geniş oxucu auditoriyasnın diqqətinə çatdıra bilmişdir. Onun tərtibçisi olduğu "Vandalizm: tarixi adlara qarşı soyqırımı" adlı əsəri 2006-cı ildə nəşr olunmuş və elə həmin ildə də xarici oxucu auditoriyasının ixtiyarına verilmişdir. "Vandalism: genocide against the historical names" adı ilə tərcümə olunmuş bu əsər inigilis dilli auditoriyaya tarixi həqiqətləri göstərmiş, "erməni məsələsi"nin bəşəriyyət üçün təhlükə mənbəyi, terrorun daşıyıcısı olduğunu faktiki materiallar əsasında sübut etmişdir.

Erməni vandalizminin cinayətlərini davamlı şəkildə öyrənən tarixçi-alim 2016-cı ildə "İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi İrəvan məscidləri" və "İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi Xan sarayı" adlı əsərlərini nəşr etdirmiş, erməni millətçilərinin Azərbaycanın maddi-mədəni irsini məqsədyönlü şəkildə məhv etdiklərini faktoloji baza əsasında göstərmiş və belə bir həqiqəti diqqətə çatdırmışdır ki, şəcərələri uzaq Balkanlara gedib çıxan, əsrlərlə "vətən" axtarışında olan və pərakəndə halda yaşayan ermənilər, Azərbaycanın tarixi torpağı olan İrəvan məkanını erməniləşdirmək üçün XX əsr boyu apardıqları etnik təmizləmə ilə kifayətlənməmiş, bu ərazidə ulu əcdadlarımızın yaratdıqları maddi-mədən irsi də dağıtmış, "Mxitarçılar" məktəbinin alqoritmləri üzərində öz saxta tarixlərini uyduraraq dünya ictimaiyyətini aldatmışlar. Erməniliyin uydurduğu saxta

tarixi Nazim müəllim həmmüəllifi olduğu və 2018-ci ldə nəşr etdirdiyi "Erməni saxtakarlığı: Yalan üzərində qurulan tarix" adlı əsərində incələmişdir.

Nazim Mustafanın filologiya üzrə elmlər doktoru İbrahim Bayramovla birgə ərsəyə gətirdikləri "Həqiqətin onomastikası" ensiklopedik məlumat kitabı həm tarixi faktlar əsasında, həm də toponimlərin dili ilə bugünkü Ermənistanın tarixi Azərbaycan torpağı olduğunu sübut edir. Bu kitabın ingilis, rus və fransız dillərinə tərcümə edilərək nəşr edilməsi indiki Ermənistan ərazisinin azərbaycanlıların tarixi vətənləri olduğunu və ermənilərin həmin ərazidə son dövrlərdə məskunlaşdıqlarını dünya elm aləminin və ictimaiyyətinin diqqətinə çatdıracaqdır.

Nazim Mustafanın tamamlamaq üzrə olduğu "İrəvan şəhərinin tarixi (1509-2020)" doktorluq dissertasiyası həm Azərbaycan tarixşünaslığında yeni səhifə açacaq, həm də İrəvan şəhərini özününküləşdirmək istəyən erməni saxtakarlarını növbəti dəfə ifşa edəcəkdir.

Həyatının böyük hissəsini tarixi həqiqətlərin üzə çıxarılmasına, erməni məkrinin, erməni saxtakarlığının ifşa edilməsinə sərf etmiş, 1000-dən çox elmi və publisistik məqalələrin müəllifi olan, Azərbaycan tarixinin aktual problemlərini öyrənən Nazim müəllim milli tarixşünaslığımıza əvəzsiz töhfəsini vermiş, İrəvan məkanının öyrənilməmiş səhifələrini araşdırmış, mövcud boşluqları doldura bilmişdir. Bu çətin və şərəfli yolda - tarixi həqiqətlər axtarışında olan, ziya işığını gətirən tarixçi-alimə yaradıcılıq uğurları arzulayıram.

***Həcər Verdiyeva,***

*tarix üzrə elmlər doktoru*

## Tədqiqatları ilə tarixləşən Nazim Mustafa

1988-ci ildə azərbaycanlılar indiki Ermənistandan tarixi-etnik torpaqlarından deportasiya edilənə qədər Qərbi Azərbaycanın tarixinin tədqiqi Azərbaycan tarixşünaslığının tədqiqat obyektindən kənarda qalmışdı. Tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa Qərbi Azərbaycanla bağlı fundamental axtarışlar aparan ilk tədqiqatçılardandır. Nazim Mustafada peşəkar tədqiqatçılara xas həmişə bir təmkinlilik özünü göstərir. Hər bir tarixi faktı ciddi mənbə əsasında araşdırmaya cəlb edir. Bu da onun tarixçi alim peşəkarlığını göstərən əsas amillərdən biridir.

Nazim Mustafa tədqiqatlarında qədim Azərbaycan şəhəri İrəvan xüsusi yer tutur. Azərbaycan tarixşünaslığında İrəvan şəhərinin tarixinin monoqrafik şəkildə öyrənilməsi Nazim Mustafanın adı ilə bağlıdır. İrəvan şəhərinin tarixindən bəhs edən əsəri ilk dəfə türk ilində 2015-ci ildə "İrevan şehri. Türk-Islam Varlığı Nasıl Yok Edildi" adı ilə Ankarada, 2020-ci ildə isə Bakıda "İrəvan şəhəri" adı ilə nəşr edilmişdir.

Yeri gəlmişkən qeyd etmək yerinə düşər ki, Bakı şəhərinin tarixini görkəmli tarixçi Sara Aşurbəyli araşdırmışdır. Məhz Nazim Mustafanın İrəvan şəhərinin tarixini araşdırması da Sara Aşurbəylinin Bakı şəhərinin tarixi ilə bağlı əsəri qədər Azərbaycan tarixi və Azərbaycan şəhərlərinin tarixinin öyrənilməsi baxımından  xüsusi elmi əhəmiyyət kəsb edir.

Nazim Mustafa İrəvan şəhərinin tarixindən bəhs edən monoqrafiyasında İrəvan şəhərinin tarixi, əhalisi, İrəvan xanlığı və Rusiya işğalı dövrlərində İrəvanın tarixi taleyi, eyni zamanda, xüsusi olaraq İrəvanda elm, təhsil, mədəniyyət, memarlıq, sənətkarlıq və incəsənət zəngin tarixi mənbələr və sənədlər

əsasında tədqiq etmişdir. Kitabda verilən müxtəlif illüstrativ materiallar, şəkillər İrəvan şəhəri haqqında tam təsəvvürün yaranmasında öz müsbət rolunu oynayır. Bütün bunlarla müəllif bir daha təsdiq edir ki, İrəvan "tipik müsəlman şəhəri" olmaqla, azərbaycanlıların yaşadığı qədim Azərbaycan şəhəridir. Kitabda müəllif İrəvan şəhərinin Azərbaycan tarixində, eyni zamanda mədəni həyatında mühüm yer tutduğunu xüsusi qiymətləndirir: "İrəvan şəhəri təkcə tarixi-memarlıq abidələri ilə deyil, həmçinin elm və mədəniyyət mərkəzi kimi Azərbaycan şəhərləri arasında özünəməxsus yer tutur. İrəvan şəhərində doğulub boya-başa çatan yüzlərlə elm, mədəniyyət, incəsənət, din xadimlərinin adları Azərbaycan tarixinə həkk olunmuşdur. Müxtəlif vaxtlarda İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər. İrəvan ziyalılarının, elm, mədəniyyət və din alimlərinin yaratdıqları əsərlər bu gün dünyanın müxtəlif kitabxanalarında, arxivlərində və muzeylərində saxlanılır. Əslən İrəvandan olan, xarici ölkələrdə "İrəvani" soyadı və təxəllüsü ilə yazıb-yaradan onlarla elm, mədəniyyət və din xadimləri haqqında məlumatlar mövcuddur. Erməni millətçiləri azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələrinin izlərini silməyə çalışsalar da və yaxud onları öz adlarına çıxmağa çalışsalar da tarixin yaddaşından onları silmək mümkün deyildir. İrəvan şəhəri Azərbaycanın elm, təhsil, mədəniyyət və incəsənət mərkəzlərindən biri kimi də Azərbaycan tarixində mühüm yerlərdən birini tutur" (İrəvan şəhəri, 2020, s.12).

2020-2021-ci illərdə Nazim Mustafa ilə yaradıcılıq birliyimiz oldu. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılmasından bəhs edən kitab üzərində işlədik. Azərbaycan Respublikasının Prezidenti

İlham Əliyevin tövsiyələri əsasında ərsəyə gətirilən "Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması" kitabı Bakı Beynəlxalq Mətbuat Mərkəzinin dəstəyi ilə 2021-ci ildə çap edilmişdir. Kitabda tarixi Azərbaycan torpaqlarında - indiki Ermənistan Respublikası ərazisində əsrlər boyu yaşamış azərbaycanlıların izlərinin silinməsi üçün bizə məxsus 1600-ə yaxın toponim, hidronim, oronimlərin kütləvi şəkildə dəyişdirilməsi və saxtalaşdırılması, bir çox yaşayış məntəqələrinin isə məqsədli şəkildə yer üzündən tamamilə silinməsi tədqiqat obyekti kimi araşdırılmışdır. Eyni zamanda, kitabda Ermənistanda azərbaycanlıların ata-baba yurdu olan 737 yaşayış məntəqəsinin, ləğv edilmiş 499 kənd və qəsəbənin, adları dəyişdirilmiş 704 inzibati vahidin, 231 oronimin, 116 hidronimin, 137 yaylaq və qışlağın toponimlərinin tarixi, coğrafi və dilçilik yöndən izahı verilib. Həmin kitabın ərsəyə gəlməsi zamanı Nazim Mustafanın məsələlərə necə həssaslıqla və məsuliyyətlə yanaşdığının bir daha şahidi oldum.

Tarix üzrə fəlsəfə doktoru Nazim Mustafanın araşdırmaları Azərbaycan tarixində yeni səhifə açmışdır. Bu tədqiqatlar indi Ermənistan Respublikası adlandırılan Qərbi Azərbaycanın tarixi Azərbaycan tarixi kontestində yeni-yeni tədqiqatlar üçün istiqamətverici rol oynayacağına əminəm.

***İbrahim Bayramov,***

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru,*
*filologiya üzrə elmlər doktoru*

* * *

İrəvan quberniyası və Zəngəzur qəzası, yəni indiki "Ermənistan Respublikası" dediyimiz o qurumun ərazisində

olan hadisələr kompleks şəkildə heç kəs tərəfindən işlənməyibdir. Nazim müəllim birinci olaraq bizim tarixşünaslığımızda, Qafqaz tarixşünaslığında, mən deyərəm ki, postsovet məkanında bu problemi birinci olaraq kompleks şəkildə, ətraflı şəkildə işləmişdir. Mən hesab edirəm ki, bu sahədə, bu mövzuda, bu istiqamətdə Nazim müəllimin atdığı bu ilk ciddi addım birinci kərpic olmalıdır, bizim 100 yox, 1000 mərtəbəli tikəcəyimiz binanın birinci kərpici olacaqdır.

***Hacı Həsənov*,**

*tarix üzrə fəlsəfə doktoru,*

*Dövlət Mükafatı laureatı*

* * *

Nazim Mustafanın "İrəvan şəhəri"ni ərsəyə gətirmək üçün istifadə etdiyi mənbə və ədəbiyyatlar necə böyük bir işin görüldüyünü, müəllifin çəkdiyi zəhmətin miqyasını aydın surətdə ortaya qoyur. O, Azərbaycan dilində 73, türk dilində 6, rus dilində 79, erməni dilində 8, digər dillərdə 7 kitaba, mətbuat orqanlarında dərc olunan 55 məqaləyə, 9 internet resursuna, Azərbaycan Respublikasının və Ermənistanın arxiv materiallarına istinad edib. Bu sətirlərin müəllifi 40 ildən çox bir zaman kəsiyində Nazim müəllimlə tanışdır. Etiraf edim ki, onun "İrəvan şəhəri" kimi sanballı bir monumental əsər ortaya qoymasını təəccüblə qarşıladım.

Kitabı oxuyandan sonra davamlı fikirləşirəm, görəsən "polad biləkləri" bükən, "dizi aynalı" pəhləvanları zaman-zaman çökdürən, "Səraslan" (Aslanbaşı) ləqəbli Həsən xan kimi sərkərdələr yetişdirən "İrəvanın ağırlığı"na Nazim Mustafanın çiyinləri necə dözüb? Qənaətim belədir: Vətən, torpaq, məmləkət sevgisi, Azərbaycan sevgisi, ziyalı-alim mənəviyyatı və məsuliyyəti müəllifə əlavə güc verir. O, bu gücü İrəvanda

gizlədilmiş həqiqətlərin ortaya çıxarılması üçün qədərincə sərf edib.

Gözümün qarşısına Nazim müəllimin eynək arxasından parıldayan gözləri, klaviaturanın düymələrini vurmaqdan qabarmış barmaqlarının ucu, ağarmış saçları gəlir. 40 il əvvəl tanıdığım Nazim Mustafayevi irəvanşünas Nazim Mustafa ilə müqayisə edirəm. Dağ boyda fərqin olduğunu kəsdirirəm. Özümü naqolay hiss edirəm. Həm də ona görə ki, ana babam İrəvanın Dəlmə Bağlarında doğulub, yaşayıb, qlavalığa qədər yüksəlib və ermənilər tərəfindən qətlə yetirilib. Mənsə nəinki İrəvanın, heç onun bir parçası olan Dəlmə Bağların belə faciəli tarixini öyrənməyə girişməmiş, başına gətirilənləri ictimailəşdirməmişəm. Nazim Mustafa isə "İrəvan şəhəri"ni 9 aya yox, neçə illərə öz kişi bətnində dünyaya gətirib. Onun bu övladı yüz illərlə yaşayacaq. İrəvanın əsl sahibləri yadlaşdırılmış şəhərimizə dönəndə yeni nəslin nümayəndələrinə bələdçilik edəcək.

***Səyyad Ağbabalı,***

*Əməkdar jurnalist*

*(“Qaranlıqdan işığa: Nazim Mustafanın “İrəvan şəhəri” kitabı barədə düşüncələr” adlı məqaləsindən iqtibas).*

## HƏYATI, ELMİ FƏALİYYƏTİ HAQQINDA XRONİKA

| | |
|---|---|
| **1957, 2 yanvar** | Nazim Yusif oğlu Mustafayev Qərbi Azərbaycanın Amasiya rayonunun (keçmiş Ağbaba nahiyəsi) Güllübulaq kəndində Yusif Əli oğlu Mustafayevin ailəsində anadan olmuşdur. |
| **1963-1972** | Güllübulaq kənd orta məktəbində təhsil almışdır. |
| **1972-1977** | Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin riyaziyyat fakültəsində təhsil almışdır. |
| **1977, sentyabr**<br>**1980, oktyabr** | Təyinatla Güllübulaq kənd orta məktəbində riyaziyyat müəllimi işləmişdir. |
| **1980, oktyabr**<br>**1981, sentyabr** | Amasiya Rayon Komsomol Komitəsində məktəblər üzrə üçüncü katib işləmişdir. |
| **1980,**<br>**noyabr-dekabr** | Ermənistan Komsomolu Mərkəzi Komitəsinin göndərişi ilə Bakı Zonal Komsomol Məktəbinin müdavimi olmuşdur. |
| **1981, sentyabr**<br>**1982, dekabr** | Amasiya Rayon Komsomol Komitəsində ideoloji məsələlər üzrə ikinci katib işləmişdir. |

| | |
|---|---|
| **1983, yanvar 1984, dekabr** | Amasiya Rayon Komsomol Komitəsinin birinci katibi vəzifəsini icra etmişdir. |
| **1983, mart** | Ermənistan Komsomolu Mərkəzi Komitəsinin nəzdindəki Komsomol Məktəbinin müdavimi olmuşdur. |
| **1985, 1 yanvar 1988, 1 dekabr** | Amasiya Rayon Partiya Komitəsində ideoloji məsələlər üzrə təlimatçı işləmişdir. |
| **1988, 10 dekabr** | Ermənilərin Azərbaycanın Dağlıq Qarabağ ərazisinə iddia irəli sürməsindən sonra Ermənistanda yaşayan azərbaycanlı əhaliyə qarşı tətbiq edilən zorakılıq nəticəsində daimi yaşayış yerini tərk etmək məcburiyyətində qalaraq Bakıda məskunlaşıb. |
| **1990, yanvar 1991, aprel** | Azərbaycan Qaçqınlar Cəmiyyətində təlimatçı vəzifəsində işləmişdir. |
| **1991, aprel 1991, iyul** | Azərbaycan Qaçqınlar Cəmiyyətində baş təlimatçı vəzifəsində işləmişdir. |
| **1991, iyul 1992, aprel** | Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun nəzdindəki Qaçqınlıq tarixi və Azərbaycan diasporu şöbəsində kiçik elmi işçi vəzifəsində işləmişdir. |
| **1992, aprel 1993, fevral** | Azərbaycan Elmlər Akademiyasının Milli Münasibətlər İnstitutunda Qaçqınlıq tarixi şöbəsində kiçik elmi işçi vəzifəsində işləmişdir. |

| | |
|---|---|
| **1992, 28 dekabr** | Milli Münasibətlər İnstitutunda Dünya azərbaycanlılarının həmrəyliyi gününə həsr olunmuş elmi-praktiki konfransda "Qaçqınların və diasporun sosial-mədəni əlaqələri" mövzusunda məruzə etmişdir. |
| **1993, fevral** | Milli Münasibətlər İnstitutunda Qaçqınlıq tarixi şöbəsində elmi işçi vəzifəsində işləmişdir. |
| **1993, oktyabr 1994, dekabr** | Milli Münasibətlər İnstitutunda işləməklə yanaşı "Vətəndaş" qəzetində müxbir vəzifəsində çalışmışdır. |
| **1993, 27 oktyabr** | Türkiyə Cümhuriyyətinin 70 illiyinə həsr olunmuş Bakıda keçirilən beynəlxalq elmi-praktiki konfransda "Şərqi Anadoluda milli mücadilə illərində Ağbaba Milli Şurasının fəaliyyəti" mövzusunda məruzə etmişdir. |
| **1995-1996** | Milli Münasibətlər İnstitutunda işləməklə yanaşı "Avrasiya" qəzetində redaktor vəzifəsində çalışmışdır. |
| **1995, 17 fevral** | "Azərbaycanlıların qaçqınlıq tarixi və öz etnik torpaqlarından deportasiyası" mövzusunda Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətində keçirilən respublika konfransında "XX əsrin 30-cu illərində Ermənistanda Azərbaycan türklərinə qarşı tarixi repressiya siyasəti" mövzusunda məruzə etmişdir. |

| | |
|---|---|
| **1995, 2 noyabr** | "Azərbaycana və azərbaycanlılara qarşı erməni təcavüzü" mövzusunda Xocalı "Yaddaş" Xeyriyyə Cəmiyyətinin təşkil etdiyi elmi-əməli konfransda "Qədimi Oğuz yurdunda Ermənistan dövlətinin yaradılması" mövzusunda məruzə etmişdir. |
| **1996, 29 mart** | "XX əsrdə azərbaycanlılara qarşı soyqırımı siyasəti" mövzusunda AMEA Milli Münasibətlər İnstitutunda keçirilən elmi-əməli konfransda "Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri Behbud xan Cavanşirə qarşı erməni terroru" mövzusunda məruzə etmişdir. |
| **1997** | Milli Münasibətlər İnstitutunda işləməklə yanaşı "Dövran" qəzetində şöbə müdiri vəzifəsində işləmişdir. |
| **1998, 27 fevral** | Azərbaycanlıların Qərbi Azərbaycandan – indi Ermənistan adlanan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş Azərbaycan Dövlət Pedaqoji Universitetində keçirilən elmi konfransda "Erməni mətbuatında azərbaycanlılara qarşı aparılan təxribat" mövzusunda məruzə etmişdir. |
| **1998, aprel 2004, noyabr** | Milli Münasibətlər İnstitutunda işləməklə yanaşı "Xalq qəzeti"ndə müxbir vəzifəsində işləmişdir. |

| | |
|---|---|
| **1998** | Həmmüəllifi olduğu "Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq" kitabı (Vaqif Arzumanlı ilə birgə) çap etmişdir. |
| **1999, 4-9 sentyabr** | İstanbulda keçirilən Avrasiya iqtisadi forumunda "Xalq qəzeti"nin müxbiri kimi iştirak etmişdir. |
| **2000, 23-31 mart** | İraqda keçirilən parlament seçkilərini müşahidə edən Azərbaycan nümayəndə heyətinin tərkibində "Xalq qəzeti"nin müxbiri kimi iştirak etmişdir. |
| **2002, 6-10 mart** | NATO-nun Brüsseldə jurnalistlər üçün keçirilən tədbirllərində "Xalq qəzeti"nin müxbiri kimi iştirak etmişdir. |
| **2003, oktyabr 2004, noyabr** | AMEA Tarix İnstitutunda elmi işçi vəzifəsində işləmişdir. |
| **2004, noyabr 2017, oktyabr** | AMEA Tarix İnstitutunda 0,5 ştat vahidi ilə elmi işçi vəzifəsində işləmişdir. |
| **2004, 21 aprel** | Azərbaycan Xalq Cümhuriyyətinin 86-cı ildönümünə həsr olunmuş AMEA Tarix İnstitutunda keçirilən respublika elmi konfransında "Ermənilərin ruslara qarşı törətdikləri terror və qırğınlar (1900-1920-ci illər) " mövzusunda məruzə etmişdir. |
| **2004 - 2022** | Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında Prezident, dövlət idarəçiliyi və |

| | |
|---|---|
| | ölkəşünaslığa dair ədəbiyyatın biblioqrafiyası şöbəsinin müdiri işləyir. |
| **2006** | Tərtibçisi olduğu "Vandalizm: Tarixi adlara qarşı soyqırımı" kitabı Tarix İnstitutu tərəfindən Azərbaycan və ingilis dillərində çap edilmişdir. |
| **2009** | Həmmüəllifi olduğu "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" monoqrafiyası AMEA Tarix İnstitutu tərəfindən Azərbaycan dilində çap edilmişdir. |
| **2012, 25 may** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 may 2012-ci il tarixli 2238 nömrəli sərəncamı ilə Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə "Elm sahəsində Dövlət Mükafatı laureatı" adına layiq görülmüşdür.<br><br>"Buta" sarayında Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatının diplomumu (nömrə 018) və fəxri döş nişanını təqdim etmişdir. |
| **2013** | Həmmüəllifi olduğu "Qubadlı: Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı" adlı monoqrafiya AMEA Tarix İnstitutu tərəfindən Azərbaycan dilində, rus və ingilis dillərində isə həmin kitabın qısa versiyası çap edilmişdir. |

| | |
|---|---|
| **2013, 17 may** | Müəllifi olduğu "İrəvan şəhəri" elektron nəşrinin Azərbaycan və rus dillərində versiyalarının Prezident Kitabxanasında təqdimatı keçirilmişdir. |
| **2013, 2 oktyabr** | Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şəki şəhərində "Ortaq türk tarixinin araşdırılması problemləri" mövzusunda keçirilən I Beynəlxalq konfransda "Cənubi-Qərbi Qafqaz Cümhuriyyətinin Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələri" mövzusunda məruzə etmişdir. |
| **2014** | Tərtibçisi olduğu "Vandalizm: Tarixi adlara qarşı soyqırımı" kitabının yenilənmiş variantı Tarix İnstitutu tərəfindən çap edilmişdir. |
| **2014, 13-16 yanvar** | Ankaranın Kızılcahamam bələdiyyəsinin inşa etdirdiyi Xocalı soyqırımı muzeyinin informasiya təminatı məqsədilə Tarix İnstitutunun əməkdaşları ilə birlikdə Türkiyədə səfərdə olmuşdur. |
| **2014, 23-25 mart** | Ankaranın Kızılcahamam bələdiyyəsinin inşa etdirdiyi Xocalı soyqırımı muzeyinin və Xocalı abidəsinin açılışı münasibətilə keçirilən tədbirdə Tarix İnstitutunun əməkdaşları ilə birlikdə iştirak etmişdir. |

| | |
|---|---|
| **2014, 11 aprel** | Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin birgə təsis etdikləri Qarabağ Araşdırmalar Mərkəzində ali məktəb tələbələri üçün "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: tarixi kökləri, mərhələləri və həlli perspektivləri" proqramı üzrə növbəti qısamüddətli kurslarda mühazirə oxumuşdur. |
| **2014, 26 noyabr** | AMEA Tarix İnstitutunun nəzdindəki Müdafiə Şurasında "1905–1906-cı illərdə İrəvan quberniyasında və Zəngəzur qəzasında ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar" mövzusunda yazdığı dissertasiya işini müdafiə etmişdir. |
| **2014, 27 noyabr** | Yeni Azərbaycan Partiyasının Humanitar məsələlər komissiyasının "İrəvan və İrəvan xanlığının Azərbaycan tarixində yeri və rolu" mövzusunda təşkil etdiyi elmi konfransda "Vandalizm: İrəvan xanlığı ərazisindəki Azərbaycan xalqına məxsus tarixi adlara qarşı soyqırımı" mövzusunda məruzə etmişdir. |
| **2015, 13 aprel** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə "Ermənilərin Qarabağa köçürülməsi: tarix və faktlar |

| | |
|---|---|
| | Marağa-150" mövzusunda Tərtər şəhərində keçirilən konfransda "Ermənilərin XIX əsrin sonu, XX əsrin əvvəllərində Tərtər bölgəsində törətdikləri terror və qırğınlar" mövzusunda məruzə etmişdir. |
| **2015, iyul** | Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin dəstəyi ilə Ankaradakı "Berkan Yayınevi" nəşriyyatında "İrevan Şehri. Türk-İslam Varlığı Nasıl Yok Edildi" adlı kitabı çap olunmuşdur. |
| **2016, fevral** | Həmmüəllifi olduğu "Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları" kitabı çapdan çıxmışdır. |
| **2016, 8 aprel** | "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914–1920-ci illər)" mövzusunda Şamaxı şəhərində keçirilən III beynəlxalq elmi konfransda "Qars bölgəsində türk-müsəlman əhaliyə qarşı ermənilərin törətdikləri soyqırımları ARDA-nın sənədlərində" mövzuda məruzə etmişdir. |
| **2016, 24 sentyabr** | Dünya Qarapapaq Türkləri Birliyinin Qarsda təşkil etdiyi beynəlxalq konfransda "Kars Vilayetinin Rusya İşgali Dönemindeki Demografik Değişikliği (1878-1918)" mövzusunda məruzə etmişdir. |

| | |
|---|---|
| **2016, 14 noyabr** | Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun "Qafqaz Albaniyasının intibahı" layihəsi çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialında "Yelizavetpol quberniyasında udi kəndləri: biz nə bilirik?" mövzusunda məruzə etmişdir. |
| **2016, 21 dekabr** | Ssenari müəllifi olduğu və "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin istehsal etdiyi "İrəvan – gizlədilmiş həqiqətlər" sənədli filminin Bakıda təqdimatı keçirilmişdir. |
| **2017** | "İrəvan quberniyasında azərbaycanlıların soyqırımı: 1918-1920" kitabı çap edilmişdir. |
| **2017, 28 fevral** | Multikulturalizm mərkəzinin "Qafqaz Albaniyasını öyrənirik" layihəsi çərçivəsində Bakı Dövlət Universitetində "Yelizavetpol quberniyasında udi kəndləri: biz nə bilirik?" mövzusunda mühazirə etmişdir. |
| **2017, 1 mart** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi bu günlərdə "Qafqaz Albaniyasını öyrənirik" layihəsinə start verib. Layihə çərçivəsində Bakı Dövlət Universitetində "Yelizavetpol quberniyasında udi kəndləri: biz nə bilirik?" mövzusunda mühazirə oxumuşdur |

| | |
|---|---|
| **2017, 17 mart** | Multikulturalizm mərkəzinin "Qafqaz Albaniyasını öyrənirik" layihəsi çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetində "Yelizavetpol quberniyasında udi kəndləri: biz nə bilirik?" mövzusunda mühazirə etmişdir. |
| **2017, 24 aprel** | Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası təşkilatçılığı ilə "Erməni soyqırımı" real tarix, yaxud tarixin yalanı" mövzusunda Bakıda keçirilən beynəlxalq elmi-praktik konfransda "Uydurma erməni soyqırımının ideya müəllifləri və onların "aksioma" çevrilən kitabları haqqında" mövzusunda məruzə etmişdir. |
| **2017, 26 aprel** | "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusunda Lənkəran şəhərində keçirilən IV beynəlxalq elmi konfransda "1905-1906-cı illərdə ermənilərin Cənubi Qafqazda törətdikləri terror və qırğınlar" mövzusunda məruzə etmişdir. |
| **2017, 13 iyun** | "Qarabağ Araşdırmalar Mərkəzi" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası layihəsi çərçivəsində kütləvi informasiya vasitələri nümayəndələri üçün "Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlıq siyasətinin |

| | |
|---|---|
| | mərhələləri" haqqında qısamüddətli kurslarda "XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı təcavüzü (1905-1906)" mövzusunda məruzə etmişdir. |
| **2017, 10 oktyabr** | Qars şəhərində keçirilən 1-ci Uluslararası Kafkasya Halk Kültürü Kongresində "İrevan (Revan) Şehrinde Türk Halk Törenleri Ve Tiyatro Kültürü" mövzusunda məruzə etmişdir. |
| **2017, 26 dekabr** | Ssenari müəllifi olduğu və "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin istehsal etdiyi "Zəngəzur" sənədli filminin Bakıda təqdimat mərasimi keçirilmişdir. |
| **2018** | AMEA Tarix İnstitutu tərəfindən "İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi İrəvan məscidləri" və "İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi Xan sarayı" kitabları erməni dilində çap edilmişdir. |
| **2018, fevral** | Həmmüəllifi olduğu (Araz Qurbanov və Elşad Əlili ilə birgə) "Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix" kitabı çap olunmuşdur. |
| **2018** | Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 7 mart 1918-ci il tarixli qərarı ilə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir. |

| | |
|---|---|
| **2018, 13 mart** | "Osmanlı Hakimiyetinin 500. ve Kurtuluşun 100. Yılında Uluslararası Erzurum Sempozyumu"nda "1918-1920 Yılları Arasında Ermenistan İstihbarat Kurumlarının Türkiye ve Azerbaycan Aleyhine Faaliyetleri" mövzusunda məruzə etmişdir. |
| **2018, 27 mart** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində "Erməni terroru Azərbaycan multikulturalizminə qarşı: 1918-2018" mövzusunda keçirilən beynəlxalq konfransda "1918-1920-ci illərdə İrəvan quberniyasında erməni işğalına qarşı azərbaycanlı əhalinin mübarizəsi tarixindən" mövzusunda məruzə etmişdir. |
| **2018, 30 mart** | Azərbaycan İstiqlal Muzeyində 31 Mart Azərbaycanlıların Soyqırımı günü münasibətilə təşkil edilən elmi-praktiki konfransda "Azərbaycanlılara qarşı soyqırımları: mərhələləri və nəticələri" mövzusunda məruzə etmişdir. |
| **2018, 27 aprel** | "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusunda Qusar şəhərində keçirilən V beynəlxalq elmi konfransda "Qərbi Azərbaycan və işğal edilmiş Azərbaycan ərazilərində ermənilərin tarixi adlara qarşı həyata keçirdikləri soyqırımı" mövzusunda məruzə etmişdir. |

| | |
|---|---|
| **2018, 16 may** | Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin təşkil etdiyi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş "Milli birlik, tarixi varislik və XXI əsrin çağırışları" mövzusunda keçirilən beynəlxalq konfransda "Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəliyinə qarşı daşnak hökumətinin cinayətkar fəaliyyəti" mövzusunda məruzə etmişdir. |
| **2018, 27 iyun** | "Azərbaycan Xalq Cümhuriyyəti: Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifəsi" mövzusunda Gəncə şəhərində keçirilən beynəlxalq elmi konfransda "Diplomatik nümayəndə Əbdürrəhim bəy Haqverdiyevə qarşı Ermənistan hökumətinin həyata keçirdiyi cinayətin təfsilatı" mövzusunda məruzə etmişdir. |
| **2018, 3 iyul** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Dini Qurumlarla iş Üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Azərbaycanın dini-mədəni abidələrinə qarşı erməni vəhşiliyi" mövzusunda Şamaxı Cümə məscidində keçirilən konfransda "İrəvan şəhərində Azərbaycan abidələrinə qarşı erməni vandalizmi" mövzusunda məruzə etmişdir. |

| | |
|---|---|
| **2018, dekabr** | "Azərbaycan Xalq Cümhuriyyəti işığında (1918–1920). Araşdırmalar, məqalələr" kitabı “Ulu” nəşriyyatında çap olunmuşdur. |
| **2018,<br>10 dekabr** | İstanbul Universitetində ssenari müəllifi olduğu və "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin istehsal etdiyi "İrəvan - gizlədilmiş həqiqətlər" sənədli filminin türk dilində səsləndirilən versiyasının təqdimat mərasimində çıxış etmişdir. |
| **2018,<br>11 dekabr** | İstanbuldakı Biruni Universitetində müəllifi olduğu "İrəvan - gizlədilmiş həqiqətlər" sənədli filminin türk dilində səsləndirilən versiyasının təqdimat mərasimində çıxış etmişdir.<br><br>İstanbul Türk Ocağında "İrəvan - gizlədilmiş həqiqətlər" sənədli filminin türk dilində səsləndirilən versiyasının təqdimat mərasimində çıxış etmişdir. |
| **2019** | AMEA Tarix İnstitutu tərəfindən "İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi İrəvan məscidləri" və "İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi Xan sarayı" kitabları ispan, ərəb və fars dillərində çap edilmişdir. |
| **2019,<br>22 fevral** | Xocalı soyqırımının 27-ci ildönümü münasibətilə Şabran rayon İcra hakimiyyətinin təşkil etdiyi elmi-praktiki |

| | |
|---|---|
| | konfransda "Cəzasız qalan cinayət" mövzusunda mühazirə oxumuşdur. |
| **2019, may** | Azərbaycan İlahiyyat İnstitutunda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən "Heydər Əliyev siyasəti və din təhsili" mövzusunda elmi-praktik konfransda məruz etmişdir. |
| **2019, 24 may** | "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində 28 may Respublika gününə həsr edilmiş elmi-praktiki konfransda "AXC dövründə diplomatik əlaqələr" mövzusunda məruzə etmişdir. |
| **2019, 18 iyun** | ABŞ-ın Corc Vaşinqton Universitetində keçirilən Azərbaycan Akademiklər Şəbəkəsinin (Azerbaijani Network of Academics) təsis simpoziumunun panel müzakirələrində "XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar və soyqırımları" mövzusunda çıxış etmişdir. |
| **2019, 26 sentyabr** | "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində görkəmli ictimai-siyasi xadim Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinə həsr olunmuş "Əhməd Ağaoğlu irsi və müasirlik" mövzusunda keçirilən elmi-praktik konfransda çıxış etmişdir. |

| | |
|---|---|
| **2019, 9 oktyabr** | Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" İctimai Birliyi tərəfindən hazırlanan "Müasir Ermənistan ərazisindəki Azərbaycan toponimləri" interaktiv xəritə portalının təqdimat mərasimində çıxış etmişdir. |
| **2019, 22 noyabr** | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin birgə təsis etdikləri Qarabağ Araşdırmalar Mərkəzində İctimai Birliyin könüllüləri üçün "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: tarixi kökləri, mərhələləri və həlli perspektivləri" proqramı üzrə qısamüddətli elmi maarifləndirmə və təbliğat kursunda mühazirə oxumuşdur. |
| **2019, 12 dekabr** | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Aparatında Ümummilli Lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar keçirilən mərasimdə "Heydər Əliyevin sovet və müstəqillik dövründə Azərbaycanın tərəqqisi istiqamətində həyata keçirdiyi dövlət siyasəti" mövzusunda məruzə etmişdir. |
| **2019. 25 dekabr** | Ssenarisinin həmmüəllifi olduğu və "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin istehsal etdiyi |

| | |
|---|---|
| | "Qarabağ: əcdadlarımızın mirası" sənədli filminin Bakıda təqdimat mərasimi keçirilmişdir. |
| **2020, 17 yanvar** | 20 Yanvar faciəsinin 30 illiyi münasibətilə Azərbaycan Texniki Universitetində keçirilən elmi-praktiki konfransda "Tariximizin faciə və qəhrəmanlıq səhifəsi" mövzusunda məruzə etmişdir. |
| **2020, 19 iyun** | Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "İrəvan tarixi Azərbaycan şəhəri" mövzusunda keçirilən video-konfransda çıxış etmişdir. |
| **2020, 19 iyul** | Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin onlayn yay düşərgəsində "İrəvan-qədim Azərbaycan şəhəri" mövzusunda keçirilən videokonfransda çıxış etmişdir. |
| **2021** | "İrəvan şəhərinin tarixi (1509-2020)" doktorluq dissertasiyasının mövzusu Koordinasiya Şurasında təsdiq edilmişdir. (Ümumi tarix, şifrə 5502.01, elmi məsləhətçi akademik Yaqub Mahmudov). |
| **2021, may** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı, Prezident Kitabxanasının və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə professor İbrahim Bayramovla birgə müəllifi olduqları "Həqiqətin onomastikası" adlı ensiklopedik məlumat kitabı çap edilmişdir. |

| | |
|---|---|
| **2021, 4 noyabr** | Araşdırmaçı jurnalist Səyyad Ağbabalının "Qaranlıqdan işığa: Nazim Mustafanın "İrəvan şəhəri" kitabı barədə düşüncələr" adlı məqaləsi AZƏRTAC tərəfindən yayınlanmışdır. |

# ХРОНИКА
# ЖИЗНИ, НАУЧНОЙ ДЕЯТЕЛЬНОСТИ

| | |
|---|---|
| **1957, 2 января** | Родился в селе Гюллюбулаг Амасийского района (бывшее нахие Агбаба) Западного Азербайджана в семье Юсифа Али оглу Мустафаева. |
| **1963-1972** | Получил образование в средней школе села Гюллюбулаг. |
| **1972-1977** | Получил образование на математическом факультете Азербайджанского (ныне Бакинского) государственного университета. |
| **1977, сентябрь 1980, октябрь** | По направлению работал учителем математики в средней школе села Гюллюбулаг. |
| **1980, октябрь 1981, сентябрь** | Работал третьим секретарем комитета комсомола Амасийского района по вопросам школ. |
| **1980, ноябрь-декабрь** | По направлению ЦК комсомола Армении стал слушателем Бакинской зональной школы комсомола. |
| **1981, сентябрь 1982, декабрь** | Работал вторым секретарем по идеологическим вопросам в Амасийском райкоме комсомола. |

| | |
|---|---|
| **1983, январь 1984, декабрь** | Исполнял обязанности первого секретаря Амасийского райкома комсомола. |
| **1983, март** | Слушатель в комсомольской школе при ЦК комсомола Армении. |
| **1985, январь 1988, декабрь** | Работал инструктором по идеологическим вопросам в Амасийском районном комитете партии. |
| **1988, 10 декабрь** | После того, как армяне выдвинули притязания на азербайджанскую территорию Нагорного Карабаха начались гонения на проживающее в Армении азербайджанское население в результате вынужден был покинуть свое постоянное место жительства и поселился в Баку.. |
| **1990, январь 1991, апрель** | Работал инструктором в Обществе беженцев Азербайджана. |
| **1991, апрель 1991, июль** | Работал старшим инструктором в Обществе беженцев Азербайджана. |
| **1991, июль 1992, апрель** | Работал младшим научным сотрудником отдела истории беженства и азербайджанской диаспоры Института философии и права Академии наук Азербайджана. |

| | |
|---|---|
| **1992, апрель 1993, февраль** | Работал младшим научным сотрудником отдела истории беженства Института национальных отношений Академии наук Азербайджана. |
| **1992, 28 декабря** | В Институте национальных отношений на научно-практической конференции, посвященной Дню солидарности азербайджанцев мира выступил с докладом на тему "Социально-культурные связи беженцев и диаспоры". |
| **1993, февраль** | Работал научным сотрудником в отделе истории беженства Института национальных отношений. |
| **1993, октябрь 1994, декабрь** | Наряду с работой в Институте национальных отношений, также работал корреспондентом газеты "Vətəndaş" ("Гражданин"). |
| **1993, 27 октября** | В Баку на международной научно-практической конференции, посвященной 70-летию Турецкой Республики выступил с докладом на тему "Деятельность Национального совета Агбабы в годы национальной борьбы в Восточной Анатолии". |
| **1995-1996** | Наряду с работой в Институте национальных отношений, также работал редактором газеты "Avrasiya". |

| | |
|---|---|
| **1995, 17 февраля** | На республиканской конференции "История беженства азербайджанцев и их депортации со своих этнических земель", состоявшейся в Президиуме Академии наук Азербайджана выступил с докладом "Историческая политика репрессий против азербайджанских тюрок в Армении в 30-х годах XX века". |
| **1995, 2 ноября** | На научно-практической конференции "Армянская агрессия против Азербайджана и азербайджанцев", организованной благотворительным обществом "Память" выступил с докладом "Создание армянского государства на древней огузской земле". |
| **1996, 29 марта** | На научно-практической конференции "Политика геноцида азербайджанцев в XX веке", проходившей в Институте национальных отношений НАНА выступил с докладом на тему "Армянский террор против министра внутренних дел Азербайджанской Демократической Республики Бехбуд хана Джаваншира". |
| **1997** | Наряду с работой в Институте национальных отношений, также работал заведующим отделом газеты "Dövran". |

| | |
|---|---|
| **1998, 27 февраля** | На состоявшейся в Азербайджанском государственном педагогическом университете научной конференции, посвященной массовой депортации азербайджанцев с их историко-этнических земель, ныне называемых Арменией, выступил с докладом "Провокация против азербайджанцев в армянской прессе". |
